10 oktyabr 1993-cü il: Vətənə və xalqa sədaqət andı

Aydın QASIMOV,
Hüquq elmləri doktoru, professor.

Tarix yalnız LİDER şəxsiyyətlərin böyük əməlləri sayəsində yadda qalır. Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan şəxsiyyətlər, görkəmli siyasət və dövlət xadimləri çox olmuşdur. Belə tarixi şəxsiyyətlərdən biri də iyirminci yüzilliyin üçdə biri qədər ölkəmizi idarə edən milli lider vəzifəsini daşıyan, dünya miqyaslı siyasətçi Heydər Əliyevdir. Ulu öndər nadir, təkrarsız şəxsiyyət, millətinin və məmləkətinin yeni tarixinin memarı, böyük dühadır, dünyanın hörmət göstərdiyi, güclü və müstəqil, istiqlalı dönməz, gündən-günə qüdrətlənən çağdaş Azərbaycanın qurucusudur. Heydər Əliyev özünün nəhəng fəaliyyəti ilə tarix yaratmış, dünya tarixinin və Azərbaycan tarixinin şanlı səhifələrinə daxil olmuş, parlaq əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin mənalı həyat yolu bütün ömrü boyu azərbaycançılıq ideyasına yenilməz sədaqəti vətənini, xalqını sevən hər kəs üçün canlı örnəkdir, parlaq nümunədir. Ulu öndər Moskvaya dəvət alıb SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olunanda qəlbimiz qürurla döyünürdü. Çünki bir azərbaycanlı oğlu dünyanın fövqəlgüc mərkəzi hesab edilən SSRİ-nin ürəyində, Kremldə əyləşərək Sovet İttifaqı kimi böyük və qüdrətli bir dövlətə rəhbərlik edən şəxslər sırasında idi. Bu, hər bir azərbaycanlı üçün son dərəcə qürurverici idi. Şübhəsiz ki, o hissləri yüz minlərlə, milyonlarla azərbaycanlı yaşayıb. Heydər Əliyev harada olmağından, hansı vəzifədə çalışmağından asılı olmayaraq hər zaman doğma xalqını düşünür, Azərbaycanla nəfəs alırdı. Azərbaycanın ərazi bütövlüyü, dövlət müstəqilliyi onun siyasi və ictimai fəaliyyətinin əsas istiqaməti olaraq hər zaman dəyişməz qalırdı.

Fenomen şəxsiyyət, ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərliyinin bütün mərhələlərində dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi ədalətli cəmiyyətin formalaşdırılması, idarəçilikdə demokratik ənənələrin bərqərar olması naminə misilsiz xidmətlər göstərmişdir. Ölkəmizə rəhbərliyə başladığı gündən ömrünün sonunadək ulu öndər Heydər Əliyev bütün səy və bacarığını, istedadını, həyatını Azərbaycan Respublikasının inkişafına, iqtisadi və hərbi cəhətdən qüdrətlənməsinə, mədəni və elmi sahədə çiçəklənməsinə, ölkəmizin dünyəvi, hüquqi və demokratik dövlətə çevrilməsinə həsr etmişdir. Bu dahi şəxsiyyətin ölkədə iqtisadiyyatın, sənayenin, ordu və dövlət quruculuğunun qanunvericilik bazasının, insan hüquq və azadlıqlarının qorunması sahəsində Avropa dəyərlərindən bəhrələnən demokratik təsisatların yaradılması və inkişafındakı xidmətləri milli və mənəvi dəyərlərə hörmət və ehtiramın, vətənə, millətə bağlılığın və sədaqətin bariz nümunəsidir.

1993-cü ildə ümummilli lider Heydər Əliyev xalqın təkidi ilə ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə gələrək ölkəni dünyanın siyasi xəritəsindən silinməkdən, bir dövlət olaraq parçalanmaqdan xilas etdi. Dövlətimizin bütün sahələrində əsaslı islahatlara qədəm qoyuldu və inkişafın əhəmiyyətli faktorlarından biri - daxili ictimai-siyasi sabitlik bərqərar oldu. Dahi rəhbər Heydər Əliyevin çağdaş tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Milli Məclisinin sədri seçilməsi ilə respublikada demokratiyanın, qanunçuluğun, hüquqi dövlət quruculuğunun bünövrəsi qoyuldu. Heydər Əliyevin parlamentə sədr seçilməsindən sonra Milli Məclisdə verdiyi bəyanatda müstəqil dövlətçiliyin inkişaf konsepsiyası və yolları sistemli şəkildə açıqlandı. Bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirilməsinə başlandı. Böyük öndər Heydər Əliyevin 1993-cü ilin iyun-oktyabr ayları və sonrakı dövrdə müstəqil Azərbaycan dövlətinin qorunması və möhkəmləndirilməsi uğrunda mübarizəsi strateji məqsəd daşıyırdı.

Heydər Əliyevin ən böyük xidməti ondan ibarətdir ki, O, Azərbaycan dövlətçiliyini qoruyub saxladı. Dövlətçiliyimizin qorunub saxlanılması isə müstəqilliyimizin, azadlığımızın möhkəmlənməsi deməkdir. O vaxtdan keçən müddət ərzində Azərbaycanda həyatın bir sıra sahələrində pozitiv dəyişikliklər, köklü islahatlar aparılmış, ictimai-siyasi sabitlik təmin edilmiş, demokratiyanın inkişafı yolunda mühüm addımlar atılmışdır. Azərbaycan nüfuzlu və etibarlı tərəfdaş, perspektiv imkanları olan bir dövlət kimi dünya dövlətləri birliyinə daxil olmuş və layiqli yerini tutmuşdur.

Tarixdə elə şəxsiyyətlər olur ki, onların həyat və fəaliyyəti bütöv bir xalqın, dövlətin inkişaf yolunu müəyyənləşdirir. Belə nadir şəxsiyyətlərdən biri də ötən əsrin və yeni minilliyin görkəmli siyasi və dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Ulu öndərin fəaliyyəti dünya siyasət sənətinin xəzinəsinə daxil olmuş, onun adı Azərbaycan xalqının rəmzinə, keçdiyi ömür yolu doğma torpağa məhəbbət və sədaqət meyarına çevrilmişdir.

Azərbaycan xalqının taleyində böyük əhəmiyyətə malik elə günlər var ki, həmin vaxtlarda onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən biri də oktyabrın 3-nə təsadüf edir. Həmin gün xalqımız özünün gələcək taleyini, müqəddəratını həll edən seçim etdi. 1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində Heydər Əliyev xalqımızın böyük əksəriyyətinin etimadını qazandı. Ulu öndər 98.84 faiz səslə Azərbaycan Prezidenti seçildi.

Heydər Əliyevin seçkilərdə bu cür böyük üstünlüklə qələbə qazanması qədirbilən xalqımızın ulu öndərə, onun möhkəm siyasi iradəsinə və yüksək nüfuzuna, idarəçilik istedadına olan dərin inamdan qaynaqlanırdı. Azərbaycan xalqı bilirdi ki, bu ağır və böhranlı dövrə ölkəyə sahib çıxa biləcək Heydər Əliyev kimi liderə ehtiyacı var. Bu, Azərbaycan xalqı üçün mühüm tarixi hadisə, müstəqil Azərbaycan dövləti üçün isə qurtuluşa gedən yolun ilk pilləsi idi.

Hələ 1993-cü il oktyabr ayının 10-da ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə bağlı keçirilən inauqurasiya mərasimində bildirmişdi ki, respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, sərişt̂əli xarici siyasətin yürüdülməsidir. Bu xarici siyasət, ilk növbədə, dövlətimizin müstəqilliyini təmin etməyə yönəldilməlidir. Ona görə də Heydər Əliyev dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmağı və inkişaf etdirməyi məqsədəuyğun hesab edirdi. Bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə olunmalıdır.

Azərbaycanı əbədi müstəqilliyə hazırlayan ulu öndərimiz deyirdi: "Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq, bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur". Vətənin ağır günündə xalqın iradəsi ilə böyük siyasətə qayıdan dahi şəxsiyyət Heydər Əliyev bacarıqlı dövlət xadimi kimi ölkəmizi düşdüyü çətin vəziyyətdən, müstəqilliyimizi itirilmək təhlükəsindən xilas etmişdir. 1993-cü il oktyabrın 3-də keçirilən Prezident seçkiləri, sözün həqiqi mənasında, Azərbaycan xalqının qarşısında duran ağır sınaq idi. Xalqın əzm və iradəsinin ifadəsi kimi yaddaşlara yazılan həmin seçkidə ulu öndər Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Bu tarix həm də Azərbaycan xalqının öz tarixində ədalətli, şəffaf və demokratik seçki keçirmək ənənəsinin təməlinin qoyulduğu gün kimi əlamətdardır. Prezident seçkilərində xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən ulu öndərimiz 1993-cü ilin 10 oktyabrında dövlətə və xalqa sədaqət andı içərək demişdir: **"Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".**

Ümummilli lider 1993-cü ildə hakimiyyətə qayıdışından sonra diqqət yönəltdiyi əsas məsələlərdən biri məhz ordu quruculuğu oldu. Dahi rəhbər 1993-cü il oktyabrın 10-da keçirilən andiçmə mərasimində bu məsələyə xüsusi diqqət yönəldərək demişdir: "Azərbaycan Respublikası bir müstəqil dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır. Təəssüf ki, müstəqillik əldə ediləndən sonra keçən dövrdə bu sahədə az iş görülübdür. Lazım gələrsə, sülh yolunda addımlarımız nəticə verməsə, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir".

Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən biri də uğurlu dövlət quruculuğu prosesinin əsasının qoyulmasıdır. Bu, Azərbaycanın müasir müstəqil dövlət kimi inkişafı baxımından çox mühüm əhəmiyyətə malikdir. Təkmil siyasi sistemin, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin, siyasi mədəniyyətin əsasının qoyulması, davamlı siyasi-hüquqi islahatların həyata keçirilməsi, eyni zamanda, milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması bu kontekstdə xüsusilə vurğulanmalıdır.

Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruldu, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində ciddi addımlar atıldı. Milli ideologiyanın yaradılması da ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsindən biridir. Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid mərkəzdə birləşdirən milli məfkurəyə çevrildi. Şübhəsiz, ümummilli lider Heydər Əliyevin müəllifi olduğu dövlət quruculuğu siyasətinin fonunda görülən işlərin və əldə edilən nailiyyətlərin sayını istənilən qədər artırmaq olar. Amma təkcə sadalananlar da onu deməyə əsas verir ki, ulu öndər Heydər Əliyev Azərbaycanı, sözün əsl mənasında, müstəqil ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi.

Azərbaycan ictimai fikrində xalqının və Vətəninin xilaskarı mücəssəməsinə çevrilən ulu öndər Heydər Əliyev çox az müddətdə vətəndaş sülhünə və həmrəyliyinə, yenicə müstəqillik əldə edən ölkənin başı üstünü alan bütün digər təhlükələrin qarşısının alınmasına nail oldu. Ümummilli liderin milli inkişaf konsepsiyası Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün aydın üfüqlər açdı. Bu konsepsiya spesifikliyi və unikallığı ilə fərqlənməklə Azərbaycan xalqının gələcək yaşam fəlsəfəsini, milli inkişaf prioritetlərini müəyyənləşdirir, demokratik dəyərləri özündə ehtiva edirdi. Beləliklə, insan hüquq və azadlıqlarının daha etibarlı qorunmasına xidmət edən islahatlar, habelə demokratikləşmə prosesinin sürətlənməsi fikri cəmiyyətdə getdikcə daha möhkəm əsaslarla intişar tapmağa başladı. Azərbaycanın inkişaf və uğur səmtini görən, duyan xalq bu yolun alternativsizliyinə qəti əmin oldu. Heydər Əliyevin qətiyyəti sayəsində siyasi anarxiya və eksperimentlərə son qoyuldu. Ölkədə cinayətkarlığın, özbaşınalığın qarşısı tam alındı, bütün qanunsuz silahlı dəstələr ləğv edildi. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı alındı. Bu bir daha təsdiq etdi ki, müstəqillik və Azərbaycanın suveren dövlət kimi mövcud olması tarixi zərurətdən irəli gələn hadisə idisə, Azərbaycanın müstəqilliyi, əbədiliyi və dönməzliyi ümummilli liderin adı və fəaliyyəti ilə bağlı olan müasir tariximizin inkaredilməz, pozulmaz səhifəsidir.

Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində özünün müstəsna əhəmiyyəti, sanbalı, xalqımızın nəinki bu günü, həm də gələcək taleyinin müəyyənləşdirilməsi baxımından Heydər Əliyev epoxası bənzərsizdir. Bu tipli epoxanın hər bir mərhələsi müasir tariximizin bütöv bir salnaməsini təşkil edir ki, onun da hər bir səhifəsi, hər bir sətri ulu öndərimiz Heydər Əliyevin qüdrətli əlləri ilə yazılıb. Bu mərhələləri təhlil etməzdən öncə, belə bir vacib aspekti önə çəkmək vacibdir ki, Azərbaycanın və böyük türk dünyasının müdrik lideri Heydər Əliyevin fəaliyyəti öz əhəmiyyəti etibarilə ölkəmizin hüdudlarından çox-çox kənara çıxaraq öz zəngin məna tutumu ilə bəşəri zirvəyə yüksəlib. Ulu öndərimiz zamanı qabaqlayan, onun fövqündə dayanan elə dahi şəxsiyyətdir ki, o yalnız öz dövrü üçün yaşamayıb, yalnız öz dövrünün qayğıları ilə məşğul olmayıb. Azərbaycanı bəşəriyyətin beşiyi olan ölkələrdən biri, xalqımızı isə nadir bir irsin övladları adlandıran Heydər Əliyevin ən böyük xidmətlərindən biri də məhz Azərbaycanın tarixi keçmişini bərpa etməsi, milli-mənəvi irsimizin dəyərlərini özümüzə qaytarması, milli adət-ənənələrimizi yaşatmasıdır. Azərbaycançılıq məfkurəsinin və milli ruhun hədsiz yüksəlişi, milli özünüdərkin hər cür buxovlardan azad olunaraq öz həqiqi təsdiqini tapması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularımızın real siyasi amilə çevrilməsinə nail olmasıdır.

Müstəqil dövlət qurmaq xoşbəxtliyi yalnız öz içərisində güclü şəxsiyyət, qüdrətli lider yetişdirmiş xalqlara nəsib olur. Bu tarixin sınağından çıxmış gerçəklikdir. Xalqı vahid milli ideya ətrafında birləşdirməyi bacaran lider onu öz müqəddəs arzularına qovuşdurmağa qadir idi. Heydər Əliyev məhz belə bir nadir şəxsiyyət və alternativsiz milli lider kimi XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etdi, Azərbaycanı bəlalardan qorudu, onun suverenliyini qoruyub saxlaya bildi.

Azərbaycanın bir dövlət kimi mövcudiyyəti şübhə altına düşmüşdü. Elə bir xaos, özbaşınalıq şəraiti yaranmışdı ki, bundan baş çıxarmaq hər kəsin işi deyildi, yaxın gələcəkdə respublikada sabitliyin bərpa olunacağına bütün dünya şübhə ilə yanaşırdı. Problemlər baş alıb gedirdi, həmin problemləri aradan qaldıra biləcək yeganə qüvvə isə yalnız Heydər Əliyev şəxsiyyəti ola bilərdi. Ölkəni görünməmiş bəlalardan xilas etmək üçün lazım olan enerji, müdriklik və uzaqgörənlik yalnız bu nadir insanda var idi. Çünki xalq hələ 1969-cu ildə hakimiyyətə gələndən sonra Heydər Əliyevin nəyə qadir olduğunu görmüşdü.

Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlamışdır. Ulu öndərin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur. Heydər Əliyevin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilmişdir. Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir. Onun dünya təcrübəsinin bütün nailiyyətlərini, sivil beynəlxalq normaları özündə tam əks etdirən sülhsevər xarici siyasətinin əsasında isə, ilk növbədə, milli müstəqilliyin möhkəmləndirilməsi, dövlətlərin hüquqlarına hörmətlə yanaşılması, bütün mübahisəli məsələlərin sülh və danışıqlar yolu ilə həll edilməsi, qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaradılması, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətlərin aradan qaldırılması prinsipləri dayanırdı.

Heydər Əliyevin respublika rəhbərliyinə bu böyük qayıdışı siyasi-iqtisadi böhran içində boğulan Azərbaycanı böyük fəlakətlərdən xilas etdi. Elə o zaman Heydər Əliyev çıxışlarının birində belə demişdi: "Azərbaycan bərbad vəziyyətdədir, bəzi adamlar on gündür ki, barmaq-barmağa vurmayıblar. Kabinetlərdə boş-boş şayiələrlə məşğul olurlar. Mən heç kəsə heç bir qarantiya vermirəm. Mən özümü peyğəmbər hesab etmirəm. Fəqət bu ağır vəziyyətdən çıxmaq üçün fəaliyyət göstərəcəyəm". Bəli, indi bu fəaliyyətin nəticələri artıq hər birimizə bəllidir. Məhz bu fəaliyyətin hesabına Azərbaycan yaşayır, tərəqqi edir. O dövrdə müdrik rəhbərin qısa zaman kəsiyində həyata keçirdiyi tədbirlərlə cəbhə xəttində atəşkəsə nail olundu, qanunsuz silahlı dəstələr zərərsizləşdirildi, dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı alındı. Bununla da respublika ərazisində stabil, normal həyat bərqərar olundu.

Sabitlik əldə olunandan sonra dövlət quruculuğu istiqamətində təxirəsalınmaz addımlar atıldı, bir çox mühüm qanunlar qəbul edildi. Ölkə iqtisadiyyatının dirçəlişi yönümündə də çoxsaylı vacib müqavilə və proqramlar imzalandı, xalq təsərrüfatının ayrı-ayrı sahələrində perspektiv layihələr, islahatlar həyata keçirildi. Bu gün Azərbaycan dinamik inkişaf edən, dünya birliyində layiqli yer tutan, müstəqil siyasət yürüdən bir dövlətdir, imzalar içində millətimizin də imzası görünür. İndi planetimizin çox yerindən nəzərlər dünyada ən böyük enerji layihələrinin gerçəkləşdiyi Azərbaycana yönəlib. Təkcə biz yox, bütün dünya bilir ki, "Əsrin müqaviləsi"nin və digər neft kontraktlarının, iqtisadi və strateji baxımdan misilsiz əhəmiyyətə malik neft kəmərinin reallaşması Heydər Əliyevin xidmətidir. 1994-cü ildə çoxlarına qeyri-mümkün kimi görünən layihələri yalnız ulu öndərimizin şəxsi nüfuzu, qətiyyəti, uzaqgörənliyi sayəsində reallaşdırmaq mümkün olub. Dünyanın məşhur siyasətçiləri, dövlət xadimləri Heydər Əliyevi siyasət nəhəngi, siyasət şahmatının mahir ustası adlandırırlar. O, tarixi perspektivləri qabaqcadan görmüş, ən çətin məqamlardan yeganə düzgün qərarlar qəbul etmək bacarığı ilə çoxlarını heyran qoymuşdur.

Azərbaycanın iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək Yolunun bərpası, TRASEKA-nın reallaşması da ümummilli liderimizin bəşəri xidmətlərindəndir. Heydər Əliyev deyirdi: "Heç bir ölkə, ən böyük ölkə də öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz... Tarixi böyük İpək Yolunun bərpası, milli və regional nəqliyyat strukturlarının, beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı Avrasiya məkanında sülhün, sabitliyin və tərəqqinin möhkəmləndirilməsi üçün böyük əhəmiyyət kəsb edir".

Ulu öndərimiz Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılmasıdır. 1995-ci ildə qəbul olunmuş ilk milli Konstitusiyada Azərbaycan Respublikasının dövlət quruculuğunun hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının qorunmasını öz siyasətinin prioriteti kimi təsbit olundu.

Böyük öndərimizin titanik fəaliyyətinin digər mühüm nəticəsi Azərbaycanın beynəlxalq aləmdə özünə layiqli yer tutması, dünyanın inkişaf etmiş dövlətləri ilə səmərəli əlaqələr çərçivəsində bərabərhüquqlu əməkdaşlığıdır. Ardıcıl, düşünülmüş xarici siyasət kursu Azərbaycan dövlətinə demokratik dəyərləri hər şeydən uca tutan, dünya dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri quran, qonşuları ilə dinc şəraitdə yaşamağa üstünlük verən sülhsevər ölkə imicini qazandırmışdır. Məhz ümummilli liderimizin gərgin səyləri və yenilməz iradəsi nəticəsində Azərbaycan bu gün dünya birliyi tərəfindən tükənməz təbii sərvətləri, iqtisadi imkanları ilə yanaşı, mədəni, elmi, intellektual, yaradıcı potensiala malik ölkə kimi qəbul olunur. İndi dünyanın qüdrətli dövlətləri regionla bağlı bir çox məsələlərin həllində ölkəmizin dəstəyinə arxalanır, onunla etibarlı tərəfdaş kimi hesablaşırlar.

Bu gün ola bilsin ki, bizlərdən bir çoxumuz hələ o qədər də dərk edə bilmirik ki, vətənimiz ötən yüzillikdə dünyaya kimi bəxş etmişdir. Vaxt ötəcək, nəsillər bir-birini əvəz edəcək, onda hamı bir daha tariximizi araşdıranda görəcək ki, Heydər Əliyev böyük və tükənməz düha sahibi kimi ölkəmizin bu günü və gələcəyi üçün nələr etmişdir, necə əzəmətli tədbirlər həyata keçirmişdir. O, Azərbaycanın salnaməsində təkrarolunmaz rəhbər, unudulmaz Vətən oğlu, fədakar insan kimi qalmışdır.

Azərbaycanda bu gün ümummilli liderimizin ideyaları nəinki yaşayır, hətta daha geniş şəkildə həyata keçirilir. Böyük öndərimizin başladığı, lakin axıra çatdıra bilmədiyi işlər onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə rəhbərinin bu gün dünya miqyasında qazandığı böyük nüfuz, nəhəng dövlətlərin başçıları ilə bərabərhüquqlu tərəfdaş kimi danışıqlar aparması, xalqımızın həqiqətlərini uca səslə bəyan etməsi bir daha sübuta yetirir ki, Heydər Əliyevin dövlətçilik ideyalarının, Heydər Əliyev yolunun alternativi yoxdur və bu yol xalqımızı yeni-yeni uğurlara, zəfərlərə aparır.

Biz hamımız Azərbaycan xalqının və dövlətçiliyinin xilaskarı və yaradıcısı olan Heydər Əliyev irsinə daim sədaqətliyik və bundan sonra da belə olacağıq. Azərbaycan xalqının dahi oğlunun pak əməlləri, müqəddəs ideyaları, arzuları və vəsiyyətləri həmişə yaşayacaqdır.

Ümummilli liderimizin alternativi olmayan düşünülmüş daxili və xarici siyasəti bu gün Onun siyasi varisi, Heydər Əliyev siyasi məktəbinin ən layiqli yetirməsi və davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda ümummilli liderimiz Heydər Əliyevin siyasətinə alternativ yoxdur. Dövlətimizin əsaslarının möhkəmlənməsi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz İlham Əliyevin varislik keyfiyyətləri, müdrikliyi, siyasi iradəsi və uzaqgörənliyi, ümumilikdə, rasional davranış modeli sayəsində mümkün olmuşdur. Ümummilli lider Heydər Əliyevin alternativi olmayan siyasətinin, strateji və siyasi xəttinin görkəmli şəxsiyyət, dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində bu gün Azərbaycan dinamik inkişaf edən ölkəyə çevrilmiş, beynəlxalq aləmdə etibarlı tərəfdaş imici qazanmışdır. Ölkə Prezidenti İlham Əliyevin elmi cəhətdən əsaslandırılmış inkişaf strategiyası nəticəsində Azərbaycan Cənubi Qafqaz regionunun sürətli inkişafa malik güclü dövlətinə çevrilmişdir. Tariximizin bu axırıncı mərhələsində son onillik haqlı olaraq İlham Əliyev dövrünün yüksək səviyyəli fəaliyyəti və böyük nailiyyət illəri kimi qəbul olunmuşdur. Böyük öndər Heydər Əliyevin müdrik siyasətindən və zəngin təcrübəsindən bəhrələnməklə Azərbaycanı inkişaf etdirmək, Azərbaycan vətəndaşlarının rifah halını qaldırmaq və ölkəni yalnız irəli aparmaq - Prezident İlham Əliyevin strateji hədəfi budur.

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycanın şanlı tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olmuşdur. Ölkə hakimiyyətinin ali məqsədi Azərbaycanda demokratik cəmiyyətin, hüquqi dövlətin yaranmasıdır. Ölkədə demokratiyanın inkişafı, vətəndaş cəmiyyətinin bərqərar olması, əsas insan hüquq və azadlıqlarının qorunması, siyasi plüralizmin, söz və ifadə, dini etiqad və vicdan azadlıqlarının təmin olunması İlham Əliyevin çoxtərəfli fəaliyyətinin başlıca prioritetlərini təşkil edir. ■

Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir. Bizim yolumuz bu yoldur və mən sizə bir daha söz verirəm ki, biz məhz bu yolla gedəcəyik.

Heydər ƏLİYEV.

10 oktyabr 1993-cü il Andiçmə mərasimindəki nitqindən